Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

**F. Köçərli adına Respublika
Uşaq Kitabxanası**



*Mən həmişə fəxr etmişəm, bu gün də
fəxr edirəm ki, mən Azərbaycanlıyam!*

Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi və 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi münasibətilə mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait

**Bakı - 2023**

**Tərtibçilər:** **Könül Səmədzadə**

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**İxtisas redaktoru və buraxılışa məsul:** **Şəhla Qəmbərova**
*Əməkdar mədəniyyət işçisi*

**Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam! - 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi münasibətilə** mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış metodik vəsait / Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi, F.Köçərli ad. Respublika Uşaq Kitabxanası; tərt.ed. S. Könül; ixt.red. və burax. məsul Ş. Qəmbərova; red. R.Məmmədli - Bakı: F. Köçərli ad. Respublika Uşaq Kitabxanası, 2023. – 84s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2023**

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll

etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü

Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.
2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 29 sentyabr 2022-ci il

## Tərtibçidən

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub. Bu yolda gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

**Heydər Əliyev,**
**Ümummilli lider**

Heydər Əliyevlə bağlı hər bir mövzu nə qədər əzizdirsə, nə qədər doğmadırsa, o qədər də məsuliyyətlidir. Çünki, Azərbaycanda elə bir sahə yoxdur ki, Heydər Əliyevin o sahədə misilsiz xidmətləri olmasın. Eyni zamanda, onunla bağlı, hətta ən kiçik məsələ də böyükdür, çox əhəmiyyətli və qiymətlidir. Heydər Əliyev irsi bizim üçün və gələcək nəsillər üçün zəngin xəzinədir, Vətəninə, xalqına, dövlətinə xidmət nümunəsidir. Bir sözlə, Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu və yaradıcısıdır. Müstəqil Azərbaycanın qurucusu Heydər Əliyevin öz xalqına, millətinə təmənnasız xidmətləri yaddaşlara əbədi həkk olunmuşdur. Böyük azərbaycanlının ikinci dəfə hakimiyyətə gəlişindən sonra Azərbaycan cəmiyyətində müstəqil dövlətçilik ideyaları fundamental mahiyyət kəsb etməyə başladı. Məhz ulu öndərin uzaqgörən siyasəti nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsində öz geostrateji mövqeyini möhkəmləndirə bildi. Ulu öndərin həyatı və fəaliyyəti Azərbaycan tarixinin bir hissəsi və mübağiləsiz deyə bilərik ki, bu tarixin ən şanlı səhifələrindəndir.

Bu gün Azərbaycanın elə bir guşəsi yoxdur ki, orada ulu öndər Heydər Əliyevin əməyi, nişanəsi olmasın. Ulu öndər Heydər Əliyev bütün həyatını Azərbaycan xalqına həsr edib və bu gün bütün sahələrdə ümummilli liderin əməyi özünü göstərir.

## Giriş

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən qiymətdir. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılanır, dünya miqyaslı siyasət və dövlət xadiminin dövlətçilik ənənələrimizin dirçəldilməsi, yaşadılması və bərpa edilməsi sahəsində misilsiz xidmətlərinə, çağdaş tariximizdə tutduğu müstəsna mövqeyinə xalqımızın və dövlətimizin qədirbilən münasibətinin parlaq təcəssümü kimi qiymətləndirilir. Ulu öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüz önündədir. Bu qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradır.

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan

xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi - istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir.

Sərəncamda da vurğulandığı kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir. Dahi şəxsiyyət hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək biri-birindən mühüm addımlar atmışdır. Bu fikir hər zaman önə çəkilir ki, ulu öndər Heydər Əliyev hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın ən geridə qalmış respublikasından qabaqcıl ölkəyə çevirdiyi kimi, hakimiyyətinin ikinci mərhələsində də müstəqilliyimizin xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdı. 1969-1982-ci illərdə qoyulan möhkəm iqtisadi təməl bu günümüz üçün əsas oldu.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün böyük idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Ümummilli Lider bildirirdi ki, milli azadlığa nail olmaq üçün xüsusən xalqımızda milli oyanış, milli dirçəliş, milli

ruhun canlanması lazımdır. Dahi rəhbər bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş, respublikamızın malik olduğu bütün imkanlardan onun inkişafı üçün istifadə etmişdir.

Ulu öndər Heydər Əliyevin dövlətimiz, xalqımız qarşısında ən böyük xidmətlərindən biri 2003-cü ildə xalqa müraciətində qarşıdakı dövrdə Azərbaycanı möhkəm təməl üzərində uğurla inkişaf etdirməyə qadir ünvanı göstərməsi oldu. 2003-cü ildə xalqın böyük əksəriyyətinin səsini qazanaraq Prezident seçilən cənab İlham Əliyev son 20 ilə yaxın dövr ərzində ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün istiqamətlərdə uğurla davam etdirir. Bu gün Prezident İlham Əliyevin gördüyü işlərin zirvəsində ərazi bütövlüyümüzü bərpa etməklə Ata vəsiyyətini yerinə yetirməsi dayanır. Ümummilli Lider qeyd olunan müraciətində axıra çatdıra bilmədiyi işlərin cənab İlham Əliyevin xalqın dəstəyi ilə həyata keçirəcəyinə böyük inamını ifadə etmişdir. Ulu Öndər "Ona Özüm qədər inanıram" söyləməklə gələcək inkişafın aydın mənzərəsini təqdim etmişdir. Prezident İlham Əliyev bu müddət ərzində torpaqlarımızın işğaldan azad edilməsinə hazırlıq işləri çərçivəsində bütün zəruri addımların atılmasına nail oldu, Azərbaycanın iqtisadi imkanları daha da genişləndi, beynəlxalq münasibətlər sistemində rolu artdı, münaqişənin həlli üçün möhkəm hüquqi baza formalaşdı və ordu quruculuğu prioritet sahə kimi öndə oldu. Dövlətimizin qətiyyəti, Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun gücü, qüdrəti, xalqımızın birliyi sayəsində Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir oldu. 44 günlük Vətən müharibəsində şanlı Zəfərimiz Azərbaycanın qarşısında yeni imkanlar yaratdı. Qürur hissi ilə

deyə bilərik ki, ümummilli lider Heydər Əliyev müstəqilliyimizin, Prezident İlham Əliyev isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdılar.

Heydər Əliyev yolu bundan sonra da Azərbaycana daha möhtəşəm uğurlar qazandıracaq.

## Bölmə I

**Vətənə məhəbbət, xalqa məhəbbət mənim beynimdədir, qanımdadır, bütün varlığımdadır. Heç nə, heç kim, heç bir qüvvə bu məhəbbəti məndən ala bilməz.**

**Heydər Əliyev,**
**Ümumilli lider**

### Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsi

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Müstəsna xidmətləri ilə əbədilik qazanan ümummilli lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq.

İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Heydər Əliyev keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Ümummilli lider Heydər Əliyevin xarakterində və fəaliyyətində doğma xalqına bağlılıq və təəssübkeşlik hələ gənc yaşlarından özünü göstərirdi. Naxçıvanda sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açan bu böyük insan hələ gəncliyindən yüksək vəzifələr tutmuş, çiyinlərində böyük bir ölkənin yükünü daşımışdır.
Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır.

Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Respublikamızın siyasi və mədəni həyatında böyük əhəmiyyəti olan saraylar, özünün görkəmi ilə şəhərə gözəllik verən neçə-neçə yaraşıqlı binalar, xalqımızın tarixində mühüm rol oynamış şəxslərə, ədəbiyyat və incəsənət xadimlərinə əzəmətli heykəllər ucaldıldı.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən ümummilli lider Heydər Əliyev «ədaləti ədalətsizliklə bərpa etmək olmaz» - deyərək dövlət idarəçiliyində qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirdi, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirirdi.
Ədliyyə Nazirliyinin də yenidən yaradılması ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf edir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə təsis edilmiş Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərməyə başladı, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yarandı.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi ümummilli lider Heydər Əliyevin xidmətləridir. Totalitar sovet rejiminin hökm sürdüyü o dövrdə respublikanın

ali qanununda xalqın mənəvi sərvətlərinin, xüsusən dilinin qorunub saxlanması və inkişaf etdirilməsi üçün hüquqi əsasların müəyyən edilməsi olduqca cəsarətli addım kimi dəyərləndirilir. Sovet milli siyasətinin tələbləri ilə tam bir ziddiyyət təşkil edən bu çətin vəzifənin öhdəsindən məhz Heydər Əliyev gələ bilmişdir. "Qoy ədalət zəfər çalsın!" – o zaman Heydər Əliyevin söylədiyi və bütün işlərinin mahiyyətini təşkil edən bu sözlər xalqın dilində şüara çevrildi.

Sonralar Heydər Əliyevin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutması qürurverici hadisə oldu. Heydər Əliyevin siyasi elitanın zirvəsinə yüksəlməsi Azərbaycan üçün xüsusilə böyük önəm kəsb etdi. Heydər Əliyev artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu.

Dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi.

Lakin sonralar baş verən məlum hadisələr, Mixail Qorbaçovun siyasi hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi.

Bundan istifadə edən ermənilər ölkəmizə qarşı uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Dağlıq Qarabağ ətrafında hərbi təcavüzə başladı. Əgər o vaxt Heydər Əliyev Azərbaycanda və ya sovet rəhbərliyində olsaydı heç vaxt Dağlıq Qarabağ kimi problem meydana çıxmazdı. Heydər Əliyev amili,

onun gücü, qüdrəti erməni millətçilərini belə təxribatlardan çəkindirirdi.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan nəinki onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü tədbirlər görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. 20 Yanvar faciəsindən bir gün sonra ulu öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

Həmin dövrdə Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyev Azərbaycana qayıtdı. Xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Bakıdan Naxçıvana getdi və Ulu Öndər yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi.

1991-1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından «sovet sosialist» sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının

fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü.

Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı. Xalqımız inanırdı ki, Azərbaycanı düşdüyü bu ağır vəziyyətdən, sosial-iqtisadi, hərbi-siyasi böhrandan yalnız Heydər Əliyev xilas edə bilər. Burada məşhur fransız mütəfəkkiri Volterin "dövlətin xilası üçün bir dahi insan kifayətdir" kəlamı yada düşür. Heydər Əliyev də Tanrının Azərbaycan xalqının taleyinə bəxş etdiyi bir qismət, zamanında millətinin xilaskarı olmaq üçün göndərilən bir dahi insan idi.

Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması, heç də təsadüfi deyil.

Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü. Bu, sözün əsil mənasında, «ömrümün qalan hissəsini də xalqıma bağışlayıram» deyib, meydana atılan böyük ürəkli Vətən oğlunun öz xalqı, öz Vətəni qarşısında misilsiz fədakarlığı idi. Heydər Əliyev öz siyasi bacarığını, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının

firavanlığı və dövlətinin müstəqilliyi yolunda yorulmadan xidmətdə olduğunu bir daha sübut etdi.

Ümummilli lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu.

## Bölmə II
## Yubiley tədbirlərinin keçirilməsi

Bu gün Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ümumrespublika miqyasında böyük ruh yüksəkliyi ilə qeyd olunmaqdadır. Bildiyiniz kimi, Prezident İlham Əliyev Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən "2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir. Ümummilli lider Heydər Əliyevin 100 illik

yubileyinin geniş və yüksək səviyyədə keçirilməsi məqsədilə respublikamızın bir çox təhsil ocaqlarında, məktəblərdə, kitabxanalarda bir sıra tədbirlərin keçirilməsi nəzərdə tutulmuşdur. Elə bu baxımdan da Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində müstəsna yeri olan ulu öndər Heydər Əliyevin ədəbi - tarixi irsini geniş oxucu kütləsinə çatdırmaq məqsədilə F.Köçərli adına RUK - da geniş tədbirlər planı hazırlanmışdır. Plana əsasən kitabxanada ilk növbədə kitab sərgisinin, foto sərginin keçirilməsi məqsədəuyğundur. Heydər Əliyevin həyat və fəaliyyətinin salnaməsini əks etdirən sərgilər müxtəlif başlıqlar altında keçirilə bilər. Məsələn: “Xatirən canlıdır, şöhrətin diri...”, “Çağdaş dünyamızın görkəmli siyasi xadimi”, “Ümumilli lider Heydər Əliyev”, “Vətən sevgisi, xalqa bağlılıq”, “Əfsanəvi öndər-misilsiz, xilaskar”, “Müstəqil Azərbaycan dövlətinin banisi”, “Milli-mənəvi dəyərlərimizin hamisi”, “Ümummilli liderin irsi əbədiyaşardır”, “Müasir Azərbaycan Respublikasının qurucusu”, “Heydər Əliyev Azərbaycan xalqının əbədi milli sərvətidir”, “Tarix yaradan dahi”, “Unudulmaz rəhbər, böyük dövlət xadimi”, “Müasir inkişaf yolunun banisi”, “Azəarbaycanın memarı və xilaskarı”, “Ürəklərdə əbədiyaşar insan”, “Azərbaycanı müasir və qüdrətli dövlətə çevirən lider”, Heydər Əliyevin parlaq zəkası”, “Mən fəxr edirəm ki, Azərbaycanlıyam”, “Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin memarı”, “Heydər Əliyevin mədəni irsimizin qorunmasında rolu” və s.

“Müasir Azərbaycan Respublikasının qurucusu” adlı kitab sərgisinin nümunəsini təqdim edirik.

1.Başlıq: “Müasir Azərbaycan Respublikasının qurucusu”

2. Kitabların  nümayişi

3. Dövrü mətbuatda çap olunmuş qəzət və jurnal materiallarının nümayişi

4. Ulu öndər Heydər Əliyev haqqında görkəmli şəxsiyyətlərin söylədikləri sitatlar.

5. Dahi şəxsiyyət Heydər Əliyevin müdrik kəlamları

5. Foto albom

6.Ulu öndər Heydər Əliyev haqqında hazırlanmış bukletlərin nümayişi

7. Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş poçt markalarının, qızıl sikkələrin nümayişi.

8. Şeir parçası

**Fikrət Qoca -VƏTƏN OGLU**

Vətən oğlu, ata oldun bızə sən,
Ata kımi qayğımızı çəkirdın.
Şair kimi həssas idin sözə sən,
Danışıqda sözdən sözü çəkırdin.

Ölkə olduq sən arzuna çatanda,
Bir əlin od bır əlin su olurdu.
Millət rahat xumarlanıb yatanda,
Yuxun bir an quş yuxusu olurdu

Yurdumuzda şan-şöhrətli hər nə var,
Yatmadığın günlər, aylar, illərdi;
Zıyarətə gəldi səni bu yollar...
Göz yaşımız məzarında güllərdı.

Sənin rəmzin Azərbaycan bayrağı,
Baş qoymağa, can verməyə hazırıq.
Dan ulduzum-yurdumuzun mayağı,
Şer də bır təsəllıdlr, yazırıq...

Adın-sanın yenllməz bır ordudu,
Indı odlar dıyarının özüsən...
Azərbaycan Heydərlərin yurdudu,
Gələcəyə baxanların gözüsən.

https://drive.google.com/file/d/10m7mJ2OCzOo67V1qdyRhb-urRpcAxSCa/view

https://drive.google.com/file/d/1wgSwScEdsKw7HeXUWH1VOlpwbV7aZVLV/view

https://drive.google.com/file/d/1ryOMYkaQ98-9hM5hvquEiFf2ryU1mf4_/view

https://drive.google.com/file/d/1xHaOSfBEhWX_GF1UBCIMz7BsSmfKgnqF/view

https://drive.google.com/file/d/1xHaOSfBEhWX_GF1UBCIMz7BsSmfKgnqF/view

## Kitabların nümayişi













Heydər Əliyev
Şəxsiyyət və zaman
1982-1990


Heydər Əliyevin kəlamları


HEYDƏR ƏLİYEV
Bibliografik Məlumat Kitabı
Müstəqil Azərbaycanın böyük gələcəyi var. Mən bu gələcəyə inanıram. Mən bu gələcəyin ümidilə yaşayıram!


HEYDƏR ƏLİYEV
VƏ AZƏRBAYCAN
NİTQ MƏDƏNİYYƏTİ


AZƏRBAYCAN UĞRUNDA!
HEYDƏR ƏLİYEVLƏ
unudulmaz görüşlər


Heydər
ƏLİYEV
1


HEYDƏR ƏLİYEV
İRSİMİZİN KEŞİYİNDƏ


HEYDƏR ƏLİYEV
VƏ AZƏRBAYCAN TARİXİ

**Dünyanın tanınmış dövlət xadimlərinin müxtəlif dövrlərdə Azərbaycanın ümummilli lideri Heydər Əliyev haqqında söylədikləri fikirlər**

"Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir".

1969-1982 və 1993-2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Görkəmli şəxslər Heydər Əliyev haqqında Heydər Əliyevin əsəri olan müasir Azərbaycan dövləti daha da qüdrətli, zəngin olacaq, hərtərəfli inkişafa nail olacaqdır. Heydər Əliyevin ideyaları yaşayır, onun siyasəti yaşayır, onun fəlsəfəsi, ideologiyası yaşayır və onun qurduğu, yaratdığı müasir Azərbayacan yaşayır və onun yolu ilə inkişaf edir.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**

Heydər Əliyev 30 ildən artıq Azərbaycanın məsuliyyətini öz çiyinlərində daşıyan, onu bir dövlət və millət kimi tarixin sınaqlarından çıxaran Vətəndaş, Şəxsiyyət, Liderdir.

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Mənim həmyaşıdlarım həyatlarındakı Heydər Əliyev mərhələsinin bu gününü yaşayır, yenə də həyat dərsi keçir. Bu dərs onun timsalında ruhun, iradənin gücünə, insanın məğlubedilməzliyinə inam dərsidir.

**Mehriban Əliyeva,**
**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti**

Heydər Əliyev bu millətin inkaredilməz qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan alternativsiz lider, millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin şah əsəridir.

**Ramiz Mehdiyev,**
**akademik**

Ulu öndər haqqında çox yazılır, onun siyasi irsinin təhlili davam edir, lakin bu prosesin sonu yoxdur. Çünki Heydər Əliyev öz xalqı və müstəqil dövləti üçün elə xidmətlər göstərib ki, hər bir nəsil onu bilməli, nəcib əməllərini nümunə kimi götürməli, tövsiyələrini bir an da olsun unutmamalıdır.

**Novruz Məmmədov**
**Prezidentin Xarici siyasət məsələləri üzrə köməkçisi**

Azərbaycanın dövlət müstəqilliyinin bərqərar olunmasına xidmət edən milli ideya azərbaycançılıqdır. Ümummilli lider Heydər Əliyev tərəfindən irəli sürülən azərbaycançılıq ideyasının hədəfi güclü, qüdrətli, demokratik Azərbaycan dövlətinin qurulmasıdır.

**Əli Əhmədov,**
**YAP sədrinin müavini-icra katibi**

Ulu öndər Heydər Əliyev hələ respublikamıza birinci rəhbərliyi dövründə azərbaycançılıq istiqamətində çox böyük, həm də qətiyyətli addımlar atmışdı. Azərbaycan tarixinin, dilinin, ədəbiyyatının, mədəniyyətinin hərtərəfli şəkildə və dərindən öyrənilməsi, təbliği, gənc nəslin milli-mənəvi dəyərlər ruhunda tərbiyəsi, milli şüurun dirçəlişi, ümumən, bütün sahələrdə azərbaycançılıq amalının möhkəm, etibarlı bazasının formalaşdırılması yönündə həyata keçirilən qətiyyətli tədbirlər məhz onun parlaq dühası, ardıcıl səyləri sayəsində reallaşmışdır.

**Ziyafət Əsgərov,**
**Fəlsəfə doktoru**

Azərbaycan xalqının ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin çoxillik ictimai-siyasi fəaliyyəti böyük bir epoxanı əhatə edir. Sovet rejiminin inkişafda olan dövrü (1969-1986), mürəkkəb keçid prosesləri (1987-1990), Azərbaycanın dövlət müstəqilliyi mərhələsi (1991-2003) kimi səciyyələnən 35 illik bir epoxanın aparıcı şəxsiyyətlərindən, əsas simalarından

olan Heydər Əliyevin böyük siyasətdə keçdiyi çətin və şərəfli yol, sərt və mürəkkəb məqamlarda onun tutduğu obyektiv və qəti mövqe, atdığı düşünülmüş addımlar, əldə etdiyi ciddi və mühüm nəticələr, əslində, çox mənalı və ibrətamiz məktəbdir.

**İsa Həbibbəyli,**
**AMEA-nın vitse-prezidenti, akademik**

Heydər Əliyev irsi Azərbaycan xalqının zəngin mənəvi sərvətlər xəzinəsində xüsusi yer tutur. Zaman öz ahəngi ilə axıb keçəcək, lakin minilliklər boyunca millətimiz və dövlətimiz dövranın sərt və gözlənilməz sınaqları ilə üz-üzə qalanda düşdüyümüz vəziyyətdən ən optimal çıxış yolunu yenə Heydər Əliyev irsində axtarıb tapacağıq.

**Yaqub Mahmudov,**
**akademik**

“Heydər Əliyev təkcə Azərbaycanda deyil, bütün türk dünyasında tanınan və sevilən liderdir”.

**Rəcəb Tayyib Ərdoğan,**
**Türkiyənin Prezidenti**

“Heydər Əliyev, həqiqətən, Rusiyanın böyük dostu idi, biz bunu hiss edirdik və çox qiymətləndiririk. O, böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi. Mən ona, sadəcə, böyük hörmətlə yanaşmırdım, mən ona məhəbbət bəsləyirdim".

**Vladimir Putin,**
**Rusiyanın Prezidenti**

“Heydər Əliyevin şəksiz liderliyinə, cəsarətinə, misilsiz dünyagörüşünə və natiqlik istedadına valehəm!”

**Corc Buş,**
**Amerika Birləşmiş Ştatlarının Prezidenti**

“Heydər Əliyev təkcə Azərbaycanın deyil, bütün türk dünyasının yetişdirmiş olduğu ən məşhur dövlət xadimlərindən biridir”.

**Süleyman Dəmirəl,**
**ictimai xadim**

“Mən Heydər Əliyevə böyük hörmət və ehtiram bəsləyirəm, onun siyasi fəaliyyətini və məharətini, uzaqgörənliyini yüksək qiymətləndirirəm”.

**Butros Qali,**
**BMT-nin Baş katibi**

“Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarmışdır. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən münaqişənin sülh yolu ilə həllində onun göstərdiyi cəsarəti, müdrikliyi və qətiyyəti yüksək qiymətləndirirdim”.

**Jak Şirak,**
**ictimai xadim**

“Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirib. Onun adı ölkəsinin müstəqilliyinin bərqərar olması, qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaq”.

**Gerhard Şröder,**
**Almaniya Federativ Respublikasının Federal kansleri**

“Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər. Onun Prezident kimi fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərdə tərəqqi yarandı və Azərbaycan Avropa ilə əlaqələrini daha da yaxşılaşdırdı”.

**Toni Bleyer, Böyük Britaniyanın Baş naziri**

“Prezident Heydər Əliyev Azərbaycanın müstəqillik qazanmasının, ölkənin bugünkü inkişafının təməlini qurmaqla bərabər, regionda sülh və sabitliyin qorunması istiqamətində misilsiz xidmət göstərən əvəzolunmaz lider idi”.

**Dzünitiro Koidzumi,**
**Yaponiyanın Baş naziri**

“Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, qədim Çin xalqının dostu olan cənab Heydər Əliyev Çin–Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır”.

**Xu Szintao,**
**ictimai xadim**

“Görkəmli siyasi xadim, çox dərin zəkaya və heyranedici cazibə qüvvəsinə malik insan – Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görmüşdür”.

**Nursultan Nazarbayev,**
**ictimai xadim**

“Heydər Əliyevin adı doğma torpaqla qırılmaz surətdə bağlıdır. Müstəqil və suveren Azərbaycanın çiçəklənməsi və tərəqqisi, ölkədə ictimai-siyasi vəziyyətin sabitləşməsi və regionda yorulmadan möhkəm sülh axtarışı Heydər Əlirza oğluna bütün dünyada yüksək nüfuz və səmimi hörmət qazandırmışdır. Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaq”.

**Emoməli Rəhmon,**
**Tacikistan Respublikasının Prezidenti**

“Hörmətli siyasətçi və dövlət xadimi kimi Heydər Əliyevin adı və nüfuzu Azərbaycan Respublikasının beynəlxalq birlikdə qazandığı layiqli yerlə qırılmaz surətdə bağlı olacaq. Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan–Azərbaycan dostluq münasibətlərinin inkişafında və möhkəmlənməsində Heydər Əliyevin böyük şəxsi töhfəsini yüksək qiymətləndiririk”.

**Georgi Pirvanov,**
**Bolqarıstan Respublikasının Prezidenti**

“Azərbaycanın müstəqilliyinin təşəkkülündə və möhkəmlənməsində, beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu misilsizdir”.

**İslam Kərimov,**
**Özbəkistan Respublikasının Prezidenti**

“Heydər Əliyev bütün həyatını doğma xalqına, öz ana Vətəninə fədakarcasına xidmətə həsr etmişdir. Moldova Respublikasında Heydər Əliyevi həmişə böyük vətənpərvər kimi, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, Avropada və bütün dünyada demokratiya idealları uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişlər”.

**Vladimir Voronin,**
**Moldova Respublikasının Prezidenti**

"Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət - bir sözlə şəksiz liderdir".

**Zbiqnev Bjezinski**

"Heydər Əliyev Cənubi Qafqazda uzun müddət ərzində ən əsas şəxsiyyət olmuşdur".

**Corc Buş**

"Heydər Əliyevi şəxsən tanıdığıma görə şərəf hissi keçirirəm. Azərbaycanın əmin-amanlığı və çiçəklənməsi üçün göstərdiyi səylərlə yanaşı, Heydər Əliyev bütün Qafqazın sülhün bərqərar olduğu bir məkana çevrilməsi istiqamətindəki fəaliyyəti ilə də daim xatırlanacaq".

**Əhməd Necdət Sezər**

"Heydər Əliyevin çox müdrik təşkilatçılıq qabiliyyəti var, ona görə də indi ölkədə hər şey maşın mexanizmi kimi işləyir".

**Bənəzir Bhutto**

“Bu qeyri-adi şəxsiyyət Azərbaycanı çiçəklənmə yoluna gətirib çıxarıb. Müxtəlif görüşlərimiz zamanı, xüsusilə Dağlıq Qarabağ münaqişəsi ətrafında müzakirələr apararkən, münaqişənin sülh yolu ilə həllində onun cəsarətini, müdrikliyini və qətiyyətini yüksək qiymətləndirdim”.

**Jak Şirak**

"O böyük dövlət xadimi idi. Mübaliğəsiz demək olar ki, siyasət nəhəngi idi".

**Vladimir Putin**

“Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər.

**Toni Bleyer**

Mən Azərbaycanı, Azərbaycan xalqını Heydər Əliyev qədər sevən ikinci adam tanımıram.

**Nikolay Baybakov**

“Heydər Əlirza oğlu Azərbaycan Respublikası üçün, MDB-nin inkişafı üçün, Qazaxıstan və Azərbaycan xalqlarının çoxəsrlik dostluğunun möhkəmlənməsi üçün çox işlər görüb”.

**Nursultan Nazarbayev**

"Prezident Heydər Əliyev qəhrəmanlığı, müdrikliyi, mətanəti və qarşısına qoyduğu məqsədinə sarsılmaz sədaqəti olmasaydı, Şərq - Qərb enerji dəhlizi gerçəkləşə bilməzdi".

**Eduard Şevardnadze**

"Biz müasir beynəlxalq gerçəklik şəraitində Bolqarıstan-Azərbaycan dostluq münasibətlərinin inkişafına və möhkəmlənməsinə Heydər Əliyevin böyük şəxsi töhfəsini qiymətləndiririk".

**Georgi Prvanov**

"Heydər Əliyevin müdrik və uzaqgörən idarəçiliyi sayəsində Azərbaycan bu gün xarici siyasətində etibar və sabitlik amili kimi çıxış edən, iqtisadi inkişaf və sosial rifah yolunda möhkəm addımlarla irəliləyən, beynəlxalq birliyin nüfuzlu bir üzvü kimi etibarlı mövqeyini gündən-günə təmin etməkdə olan ölkədir".

**Abdullah Gül**

"Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan Respublikası son illər dünya birliyində layiqli yer tutmuşdur. Azərbaycanda hüquqi dövlət quruculuğu, iqtisadi islahatların uğurla həyata keçirilməsi sahəsində görülən işləri diqqətlə izləyir və onları dəstəkləyirəm".

**II İohan Pavel**

Heydər Əliyevin müdrik rəhbərliyi sayəsində Azərbaycan keçmiş Sovetlər Birliyinin lider dövlətləri ilə müqayisədə həddindən çox nailiyyətlər əldə edibdir. O, həqiqətən yeni Azərbaycan dövlətinin qurucusudur.

**Timm Eqqar**

"Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun yüksəlməsində, ölkələrimiz və xalqlarımız arasında ikitərəfli münasibətlərin inkişafında və genişlənməsində Heydər Əliyevin tarixi rolu böyükdür".

**İslam Kərimov**

"Heydər Əliyevin simasında Azərbaycan Respublikası uzun illər ərzində ölkənin bütün həyatına dərindən nüfuz etmiş və Azərbaycanın tarixində əbədi yer tutmuş böyük dövlət xadimini itirmişdir. Onun adı ölkənin müstəqilliyinin bərqərar olmasında qazandığı tarixi nailiyyətlərlə daim bağlı olacaqdır".

**Gerhard Şröder**

"Heydər Əliyevi həmişə böyük vətənpərvər, ölkələrimiz arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi uğrunda, sabitliyin və təhlükəsizliyin qorunub-saxlanması uğrunda mübariz kimi tanımış və qiymətləndirmişik."

**Vladimir Voronov**

"Heydər Əliyevin Azərbaycanın inkişafında və ölkələrimiz arasında əlaqələrin gücləndirilməsində əvəzsiz xidmətləri olmuşdur. 1998-ci ilin iyul ayında Birləşmiş Krallığa səfəri zamanı onunla olan görüşümüzü çox yaxşı xatırlayıram".

**Kraliça II Elizabet**

"Mərhum Heydər Əliyev Azərbaycanın xoşbəxtliyi və firavanlığı, bölgədə və dünyada sülh naminə göstərdiyi fövqəladə xidmətlərlə türk və dünya tarixində şərəfli yer tutmuşdur."

**Rəcəb Tayyib Ərdoğan**

Beynəlxalq aləmdə tanınmış siyasətçi, Çin Xalq Respublikasına dostluq münasibəti bəsləyən, Çin xalqının qədim dostu olan cənab Heydər Əliyev Çin-Azərbaycan dostluq münasibətlərinin inkişafında böyük rol oynamışdır".

**Xu Szintao**

"Onun işləri və xidmətləri qədirbilən Azərbaycan xalqının və bütün xoşməramlı insanların xatirəsində əbədi yaşayacaq".

**İmaməli Rəhmanov**

"Cənab Heydər Əliyevin regional sülh və dostluğa nail olunması, iki dost, qardaş ölkə olan İran İslam Respublikası ilə Azərbaycan Respublikası arasında əlaqələrin dərinləşdirilməsi yolunda xidmətləri heç vaxt xatirələrdən silinməyəcəkdir. Onun keçən il İran İslam Respublikasına çox səmərəli səfəri ölkələrimizin əlaqələrində dönüş nöqtəsi olmuşdur".

**Seyid Məhəmməd Xatəmi**

**Heydər, öz yurdunun sadiq əsgəri,**

**Türkün ən qüdrətli generalıydı.**

**Vahid Əziz**

**Qəlbini bürüyüb Azərbaycana,**

**Qəlbinə bürüyüb Azərbaycanı**

**Məstan Günər**

**Sən tarixi yaza-yaza**

**Özün də tarix oldun.**

**Rafael Hüseynov**

## Heydər Əliyevin müdrik kəlamları

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

Böyük siyasəti kiçik hissələrə, xırda mənfəətlərlə bağlamaq olmaz.

Xalq dövlət üçün, dövlət xalq üçün olmalıdır.

Tarix həmişə hər şeyi öz yerinə qoyur.

Azadlıq və istiqlaliyyət hər bir xalqın milli sərvətidir.

Başqasının fikrinə hörmət etmək, ondan faydalı bir şey götürmək qabiliyyətli hər bir adama lazımdır.

Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır.

Hər bir insan həyatda öz yerini tapmalıdır. Amma öz yerini, özünəməxsus yerini tapmalıdır.

Gərək nəbzin, Vətənin nəbzi ilə vursun.

Demokratiya insanların şüurunda dəyişiklik deməkdir. Bu dəyişiklik inqilabla olmur, təkamül yolu ilə tədricən gedir.

Vətənpərvərlik insanın daxilindəki duyğudur. Əgər bunlar

yoxdursa insan mənəviyyatsızdır.

Heç kim əbədi qalib ola bilməz.

Kim ki biliyindən, bacarığından artıq iddialar edir, o həmişə məğlub olur.

Ədalətsizliklə ədalətliyi bərpa etmək olmaz.

İqtisadiyyatı güclü olan dövlət, hər şeyə qadirdir.

Öz ana dilini bilməyən adamlar şikəst adamlardır.

Ağıl olan yerdə zora ehtiyac yoxdur.

Rüşvətxorluq bizi içimizdən yeyir.

Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, əbədi olması ondan da çətindir.

Vəzifədən ötrü yaşayan adamlar bədbəxt adamlardır.

Tarix heç nəyi silmir.

Müstəqillik yolu qədər çətin yol yoxdur.

Dövlət – xalqın işi olmalıdır.

Mədəniyyət – bəşəriyyətin topladığı ən yaxşı nümunələrlə xalqları zənginləşdirir.

Yüksək mədəniyyətə malik olan xalq həmişə irəli gedəcək, həmişə yaşayacaq, həmişə inkişaf edəcək.

Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir.

Xalq gərək daim öz kökünü xatırlasın.

## FOTO ALBOM




















F.Köçərli adına Respublika Uşaq Kitabxanasında "Heydər Əliyev" ili ilə bağlı keçirilən tədbirlərdən biri də kitab icmalıdır. Ümumilli lider, görkəmli dövlət və ictimai-siyasi xadim Heydər Əliyevin zəngin irsini gələcək nəsillərə geniş şəkildə təbliğ etmək məqsədilə bir çox kitabların icmalını keçirmək olar. Bildiyiniz kimi, dahi şəxsiyyət Heydər Əliyev haqqında yüzlərlə kitablar yazılmışdır. Fondumuzda yer alan bir çox kitabların adlarını misal gətirə bilərik. Məsələn, "Heydər Əliyev-müstəqilliyimiz əbədidir, "Heydər Əliyev ideyalarının zəfər yürüşü", "Heydər Əliyev-məktəblilərin gözü ilə, " Heydər Əliyev və mədəni irs" və s.

F.Köçərli adına Respublika Uşaq Kitabxanası olaraq, bizdə qərara aldıq ki, məhz ümummilli lider Heydər Əliyevin çoxşaxəli ömür yoluna, onun ictimai-siyasi həyatındakı roluna nəzər salaq və Heydər Əliyev irsini oxucular arasında geniş şəkildə təbliğ edək. Tədbirə elm adamları, ali məktəb müəllimləri, tələbələr, Heydər Əliyev irsini araşdıran tarixçilər, alimlər, məktəb şagirdləri, oxucular dəvət alır.

Kitabxanaçı tədbiri açıq elan edir.

Əziz tədbir iştirakçıları! Yuxarıda qeyd etdiyimiz kimi, 2023-cü il mayın 10-da Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur. Bu münasibətlə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 29 sentyabr 2022-ci il tarixdə 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan edilməsi haqqında sərəncam imzalayıb. Bu sərəncam Heydər Əliyev şəxsiyyətinə, onun tarixi xidmətlərinə yeni dəyərlər əsasında verilən qiymətdir. Sərəncamda qeyd edildiyi kimi, Azərbaycan xalqı yeni əsrə və

yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Azərbaycanda 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi cəmiyyətin bütün təbəqələrində hədsiz sevinclə qarşılanır, dünya miqyaslı siyasət və dövlət xadiminin dövlətçilik ənənələrimizin dirçəldilməsi, yaşadılması və bərpa edilməsi sahəsində misilsiz xidmətlərinə, çağdaş tariximizdə tutduğu müstəsna mövqeyinə xalqımızın və dövlətimizin qədirbilən münasibətinin parlaq təcəssümü kimi qiymətləndirilir. Ulu öndərin dövlətimiz, xalqımız qarşısındakı xidmətləri hər an, hər gün gözümüz önündədir. Bu qərar bir daha dahi şəxsiyyətin fəaliyyətinin ayrı-ayrı istiqamətlərinin dərindən araşdırılmasına, zəngin irsinin əhatəli təbliğinə geniş imkanlar yaradır.

Ümummilli lider Heydər Əliyevin fəaliyyəti, Azərbaycan xalqının milli sərvəti, xəzinəsidir, bundan sonra da neçə-neçə nəsillər bu məktəbdən bəhrələnərək Azərbaycanın davamlı inkişafına öz töhfəsini verəcəkdir. Onun fəaliyyətinin hər bir mərhələsi istər Azərbaycanda hakimiyyətinin birinci dövrü (1969-1982), istərsə də müstəqilliyimizin bərpasından sonrakı dövr ayrı-ayrılıqda tədqiqat mövzusudur. Fəxarət hissi ilə qeyd etmək lazımdır ki, ulu öndər Heydər Əliyev hər bir azərbaycanlının qəlbində özünə bir abidə ucaldıb və bu abidənin adı müasir müstəqil Azərbaycan dövlətidir.

Sərəncamda da vurğulandığı kimi, ulu öndər Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan ulu öndər Heydər Əliyevin həyat amalının təntənəsidir. Dahi şəxsiyyət hələ hakimiyyətinin birinci dövründə Azərbaycanın müstəqil gələcəyini düşünərək

biri-birindən mühüm addımlar atmışdır. Bu fikir hər zaman önə çəkilir ki, ulu öndər Heydər Əliyev hakimiyyətinin birinci dövründə Azərbaycanı keçmiş İttifaqın ən geridə qalmış respublikasından qabaqcıl ölkəyə çevirdiyi kimi, hakimiyyətinin ikinci mərhələsində də müstəqilliyimizin xilaskarı kimi adını tarixə qızıl hərflərlə yazdı. 1969-1982-ci illərdə qoyulan möhkəm iqtisadi təməl bu günümüz üçün əsas oldu.

Haqqında söz açdığımız "Heydər Əliyev-məktəblilərin gözü ilə kitabı Təhsil nəşriyyatı tərəfindən 2013-2014-cü illərdə nəşr olunub.




Kitaba ümummilli lider Heydər Əliyevin müdrik kəlamları, haqqında yazılmış şeirlərdən parçalar, məktəblilərin bilik yarışlarında yer tutmuş inşalar daxil edilmişdir.

"Azərbaycanın bugünkü gənc nəsli gələcək Azərbaycanı yüksəklərə qaldıracaqdır.

**Ümummilli lider Heydər Əliyev**

"Heydər Əliyev məktəblilərin gözü ilə"adlı kitab hər il ayrıca kitab şəkilində çap etdirilib təhsil müəssələrinə paylanılır.

Bu gün Azərbaycanın təhsil ictimaiyyətinə təqdim olunan, nəfis tərtibat və yüksək poliqrafik keyfiyyətdə çap olunmuş bu dəyərli kitabda toplanan materiallarla ilkin tanışlıq göstərir ki, məktəblilərimiz bütün nəsillərə örnək olan böyük tarixi şəxsiyyət, çağdaş Azərbaycan dövlətçiliyinin simvoluna çevrilmiş Ulu öndər Heydər Əliyev haqqında öz fikir və düşüncələrini həm yeniyetmə təbiətinə uyğun səmimi hisslərlə, həm də bu dahi şəxsiyyətə dərin hörmət və sonsuz ehtiram duyğuları ilə ifadə etmişlər. Kitabda toplanan inşa yazıların hamısında Heydər Əliyev fenomeninə və şəxsiyyətinə sonsuz sevgi və sayqı vardır.

Bu kitabın uşaq və gənclərimizin milli vətənpərvərlik, dövlətçilik və Vətənə sədaqət ruhunda tərbiyə olunmasında önəmli rol oynayacağına inanırıq.

Əziz oxucular, kitabdakı inşalardan biri ilə qısaca da olsa sizləri tanış etmək istərdik.

Heydər Əliyev...İlk baxışda sadə bir Azərbaycan vətəndaşına məxsus olan ad! Lakin bu adı daşıyan şəxsin fəaliyyətini, canı qədər sevdiyi Azərbaycanın inkişafı üçün etdiklərini öyrəndikcə fikirlər tamamən dəyişir və şübhəsiz ki, hər bir Azərbaycan vətəndaşının gözləri önündə ömrü ömürlərə bəs edəcək bir həyat yolu yaşamış Heydər Əlirza oğlu Əliyev canlanır.

O, böyük siyasi dövlət xadimi, Azərbaycan Respublikasının bəşəriyyətə verdiyi tarixi şəxsiyyətlərdən biridir. Heydər Əliyev hələ sağlığında canlı əfsanəyə çevrilmiş, heyranlıq doğuran coşqun siyasi fəaliyyəti istər ölkə, istərsə də

dünya mətbuatında geniş işıqlandırmışdır. O, bizim dahi müasirimizdir. Azərbaycan Respublikasının inkişaf prosesinə təkan verən şəxsiyyətimizdir. O şəxsiyyət ki, müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını qoymuş, bütün həyatını öz xalqına, öz millətinə, öz vətəninə bəxş edərək zəngin fəaliyyəti ilə Azərbaycan xalqının tarixində dərin iz buraxmış və əsl dövlət idarəçiliyinin məktəbini yaratmışdır.

Müstəqil Azərbaycan Respubliksı Heydər Əliyevin şah əsəridir. Vaxtilə memar olmaq istəyən, ancaq müəyyən səbəblər üzündən istəyinə qovuşa bilməyən bu insan təməli möhkəm qoyulmuş Azərbaycan adlı bir binanın memarı oldu.

Heydər Əliyev polad kimi möhkəm iradəyə, natiqlik bacarığına, dərin məntiqə, zəngin həyat təcrübəsinə, məhsuldar iş qabiliyyətinə malik heyrətamiz insan, dəqiq rəhbər, uzaqgörən dövlət xadimi, əsl siyasətçi, 1993-2003-cü illəri əhatə edən bir dövrdə Azərbaycan Respublikasının Prezidenti, milli təhsil quruculuğu işinin banisi, xalqımızın danılmaz tarixini və keçmişini yaşadan, gələcəyini təmin edən, Ümummilli lider kimi hər kəsə nəsib olmayan bir ad qazanan şəxsiyyətdir.

Heydər Əliyev öyrəndikcə, oxuduqca bitib-tükənməyən bir kitabdır. Elə bir kitabdır ki, vərəqlədikcə kitabın dərin məna kəsb edən səhifələri səni öz ağuşuna alıb irəliyə aparır. Yaratmaq, qurmaq istəyirsən. Sənə əmanətə verilən bu torpağın daha da çiçəklənməsi üçün əlindən gələni etmək istəyirsən.
İnşanın sonunu məktəbli belə cümlələrlə bitirir.
Ulu öndər! Sənin qoyduğun təməl üzərində Azərbaycan Respublikası inkişaf edir. Bizim hər bir uğurumuz, nailiyyətimiz, inkişafımız sənin adınla bağlıdır. Sənə borcluyuq hər günümüzü və sabahımızı! Cismən aramızda olmasan da,

sanki Azərbaycan səmasından bizə baxır, çox fəxr etdiyin, və dəyər verdiyin gənclərin uğuruna sevinir, yenə də öz müdrik tövsiyələrini verirsən.

Nə qədər Azərbaycan,
Nə qədər bu millət var;
Heydər: "xalqım"-deyəcək,
Xalq: "Heydər söyləyəcək.

Ümummilli liderimiz, milli dövlətimizin memarı və qurucusu Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı keçirilən tədbirlərdən biri də şeir müsabiqəsidir. Şeir müsabiqəsi oxucuların ən çox sevdiyi tədbirlərdən biridir. Tədbiri təşkil edən kitabxanaçı ulu öndər Heydər Əliyev haqqında yazılmış bir çox şeirlərdən istifadə edə bilər. H.Əliyev haqqında yazılmış şeirlər o qədər ürəyəyatımlı və o qədər maraqlıdır ki, oxucular demək olar ki, bütün şeirləri gözəl demək bacarığına malikdirlər. Tədbirin sonunda oxucular münsiflər tərəfindən seçilir və mükafatlandırılır. İndi isə gəlin oxucuların ifasında müəllifi Qabil Ədalətə aid **"Ulu bir sərkərdə, ulu bir öndər "** şeirini dinləyək. Oxucular səhnəyə daxil olur.

Gəlişinlə qurtulubdur bu vətən,
Sən oldun bu xalqa ümid və güvən.
Sən oldun dar gündə köməyə yetən,
Ulu bir sərkərdə, ulu bir öndər.

Ucaltdı hər yerdə bayrağımızı,
Yazdı tarixlərə ad-sanımızı.
Tanıtdı dünyada varlığımızı,
Ulu bir sərkərdə, ulu bir öndər.

Hara baxırsansa nişanələri,
Özündən sonrakı abidələri.
Bizləri tərk etmir xatirələri
Ulu bir sərkərdə, ulu bir öndər.

Heydər adı dastanlara çevrildi,
Onun qüdrətini yer üzü bildi.
Allah onu yurdumuza yetirdi,
Ulu bir sərkərdə, ulu bir öndər.

Zəhmətiylə dirçəltdi yurdunu,
Gücləndirdi yenilməyən ordunu.
Ödəyibdir min rəhbərin borcunu,
Ulu bir sərkədə, ulu bir öndər.

Bu idi məqsədi vətən ucalsın,
Oğulları düşmənləri dağlasın.
Analar gözünü sevinc ağlatsın,
Ulu bir sərkərdə, ulu bir öndər.

Əlindən gələni xalqına etdi,
Ağ günə çıxarıb dünyadan getdi.
Qoymadı desinlər yolunuz bitdi,
Ulu bir sərkərdə, ulu bir öndər.

Özündən sonra bir davamçı qoydu,
Onunda bu yolu Heydər yoludu.
Haqqa qovuşsa da xalqın düşünər,

Ulu bir sərkərdə, ulu bir öndər.

Dahi şəxsiyyətlər yetirən millət həqiqətən uludur. Belələri qabiliyyəti, qətiyyəti misilsiz fəaliyyəti ilə millətinin firavan və xoş sabahı üçün möhkəm zəmin yaradırlar. Türk dünyasında xüsusi yeri olan, nadir zəka sahibi ulu öndər Heydər Əliyev irsinin öyrənilməsi istiqamətində təşkil olunan tədbirlərdən biri də oxucular arasında keçirilən viktorinadır. Tədbiri təşkil edən kitabxanaçı öncədən viktorinanın suallarını oxucular arasında paylayır.Viktorina 15 sualdan ibarətdir. Ulu öndər Heydər Əliyev haqqında təşkil olunan viktorinanın suallarını cavablandıran iştirakçılar sonda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının müdriyyəti tərəfindən nəfis tərtibatda nəşr olunmuş kitablarla mükafatlandırılırlar. “Unudulmaz tarixi şəxsiyyət” adlı viktorinanın suallarını sizlər üçün təqdim edirik.

Sual? 1: Heydər Əliyevin ən çox sevdiyi şeir?
Cavab: Xalq şairi Səməd Vurğunun “Azərbaycan” şeiri
Sual? 2: Ən çox sevdiyi şair?
Cavab: Məmmədhüseyn Şəhriyar
Sual? 3 Ən çox sevdiyi mahnı?
Cavab: Xalq mahnıları və bəstəkar Tofiq Quliyevin manıları
Sual? 4 Ən çox sevdiyi insan?
Cavab: Zərifə xanım.
Sual? 5 Ən çox sevdiyi bəstəkar?
Cavab: Üzeyir Hacıbəyov.
Sual? 6 Ən çox sevdiyi pyes?
Cavab: Cəlil Məmmədquluzadənin “Ölülər” pyesi
Sual? 7 Ən çox sevdiyi sənət əsəri?
Rəssam Səttar Bəhlulzadənin “Muğan gözəlləri” əsəri

Sual? 8 Ən çox sevdiyi sənət növü?
Cavab: Müniatür sənət növü.
Sual? 9 Ən çox sevdiyi sənətkar?
Cavab: Ömər Eldarov
Sual? 10 Ən çox sevdiyi içki?
Cavab: Çay, səhərlər südlə.
Sual? 11 Ən çox sevdiyi gül?
Cavab: Qızılgül
Sual? 12 Ən çox sevdiyi rəng?
Cavab: Zoğalı rəng
Sual? 13 Ən çox sevdiyi idman növü?
Cavab: Yüngül atletika və üzgüçülük
Sual? 14 Ən çox sevdiyi insani xüsusiyyətlər?
Cavab: Mərdlik
Sual? 15 Ən çox sevdiyi şəhər?
Cavab: Bakı şəhəri
Sual? 16 Ən çox sevdiyi mövsüm?
Cavab: Yaz fəsli
Sual? 17 Ən çox sevdiyi qələm növü?
Cavab: Mürəkkəblə yazan qələm
Sual? 18. Ən çox sevdiyi rəqəm?
Cavab: 7
Sula? 19 Ən çox sevdiyi bayram?
Cavab: Novruz bayramı
Sual? 20 Ən çox sevdiyi jurnal?
Cavab: "Molla Nəsrəddin" jurnalı

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı keçirilən tədbirlərdən biri də oxucularla söhbətdir. Kitabxanaçı uşaqlara Heydər Əliyev haqqında geniş məlumat verdikdən

sonra sözü uşaqlara verir. Uşaqlar öz növbələrində müasir uşaq yazarlarının şeirlərini səsləndirirlər. Tədbir ulu öndər Heydər Əliyevin sitatı ilə başlayır.

”Uşaqlar bizim sevincimiz, xoşbəxtliyimiz, cəmiyyətin gələcəyidir. Uşaqlar hər bir insanın mənəviyyatıdır. Ona görə də dünyada, hər bir insanpərvər cəmiyyətdə uşaqlara daim xüsusi qayğı, xüsusi diqqət göstərilibdir. Uşaqlar daim qayğı altında olmalıdır, onları qorumaq, müdafiə etmək, böyütmək, insan cəmiyyətinin fəal iştirakçısı, fəal üzvü etmək lazımdır. Azərbaycanın prezidenti kimi mən bu gün bəyan edirəm ki, uşaqlara, körpələrə olan qayğı bütün qayğılardan üstündür”.

**Heydər Əliyev,**
**Ümummilli lider**

“Bəzən məndən soruşurlar ki, bu qədər gərgin işləri aparmağım necə mümkün olubdur? Hər bir insanın ilhamverici qüvvəsi var. Mənə ilham verən ən böyük qüvvə Azərbaycanın uşaqlarıdır, Azərbaycanın gəncləridir, Azərbaycanın gələcəyidir”.

**Heydər Əliyev,**
**Ümummilli lider**

**Kitabxanaçı:** Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş dövlət uşaq siyasəti ölkəmizdə uşaqların hərtərəfli və ahəngdar inkişafının təmin edilməsinə yönəlmişdir. Ulu öndər dəfələrlə vurğulamışdır ki, müstəqil dövlətimizdə uşaqların yüksək mənəvi-əxlaqi mühitdə, milli dəyərlər əsasında kamil tərbiyə alaraq layiqli şəxsiyyət kimi yetkinləşməsi olduqca mühüm əhəmiyyət kəsb edir.

Bəli, bu gün dövlətimiz hər bir azərbaycanlı uşağının yüksək sosial-mənəvi mühitdə böyüməsinə çalışır. Ölkəmizdə

dövlətin hüquq sisteminin əsasını təşkil edən Konstitusiya və qanunlarla uşaq hüquqlarına etibarlı təminat mexanizmləri yaradılıb. Məqsəd uşaqların layiqli, firavan yaşayış səviyyəsinin, təlim-tərbiyəsinin, təhsilinin, sosial müdafiəsinin, sağlamlığının yüksək səviyyədə təşkil edilməsidir. Azərbaycanda uşaq siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Müstəqil Azərbaycan dövlətinin qurucusu olan ulu öndər uşaqları sonsuz məhəbbətlə sevirdi və onlara böyük qayğı və diqqət göstərirdi. Azərbaycan körpələrinin sağlamlığı, onların yaxşı təhsil və təlim-tərbiyə alması, Vətən və xalq üçün gərəkli övlad kimi böyüməsi ümummilli liderin daim diqqətində olmuşdur.

Bildiyiniz kimi, F. Köçərli adına Respublika Uşaq Kitabxanasına tez-tez ekskursiyalar təşkil olunur. Kitabxanamıza respublikamızın bir çox yerlərindən bağçalardan, məktəblərdən, lisey və gimnzaziyalardan gələn kiçik, orta, böyük yaş qrup oxucular içəri girən kimi dahi şəxsiyyət Heydər Əliyevin stendi ilə tanış olurlar. Kitabxananın foyesində yer alan bu stendə ulu öndərin sitatı yer alıb.

Heydər Əliyev "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyat, bilik, zəka mənbəyidir." demişdir. Stenddə Heydər Əliyev haqqında nəsif tərtibatda nəşr olunmuş kitablar yer alıb. Məktəblilər kitabxanamızın fondu ilə də yaxından tanış olduqca görürlər ki, fondumuzda ulu öndər, tarixi şəxsiyyət, Azərbaycanın dövlətçilik salnaməsində silinməz izlər qoymuş Heydər Əliyevin zəngin və çoxşaxəli irsini, həyat və siyasi fəaliyyətini təbliğ edən muzeyi ekskursiya ediblər. Azərbaycanın hərtərəfli tərəqqisi yolunda tarixi xidmətlər göstərən fenomenal şəxsiyyətə həsr edilmiş kitab sərgisi ilə tanış olublar. Ekspozisiya zalında yerləşdirilmiş

monitorda ziyarətçilərə Mərkəzin əməkdaşları tərəfindən hazırlanmış film nümayiş etdirilir.

Əziz uşaqlar gəlin birlikdə dostlarınızın ifasında müəllifi Azərbaycan Yazıçılar Birliyinin üzvü, müasir uşaq yazıçısı Gülzar İbrahimovanın nəfis şəkildə yazdığı şeirlərinə qulaq asaq. Bildiyiniz kimi, Gülzar xanım Heydər baba haqqında bir çox gözəl şeirlər yazıb ki, bunlardan da bir neçəsini sizlər üçün səsləndiririk.



**Heydər babanın nəsihətləri**

- Qonaq, sən çox mehribansan,
De, hansı diyardansan?
Elmini hardan almısan,
Ki, bu cür savadlısan?

Danışırsan neçə dildə,
Xəbərin var hər bir elmdən.
İşi kimdən öyrənmisən,
Ki, belə zəhmətkeşsən?

- Adlanır "Azərbaycan"
Doğulduğum gülüstan!
Torpaqları bərəkətli,
İnsanları mehriban!

Olub mənim bir nurani,
Müdrik bir Heydər babam.
Mənə nəsihət eləyib,
Həyat yolu göstərib.

Deyib: "Yalnız elm ilə
Ucalar hər bir insan!"
Yol göstərib: "Zəhmət ilə
Gözəl yaşayar adam!".

Kim əməl edərsə əgər,
Müdrik nəsihətinə,
Xeyir tapar həmişə,
Düşməz heç vaxt çətinə!

Mən də belə edirəm,
Müdriki eşidirəm.
Babam göstərən yolla
Gələcəyə gedirəm!

**Ulu Öndər**
Əlamətdar bir gündə,
Bir məktəb həyətində,
Böyük tədbir var idi
Şagirdlər şeir deyirdi.

Gördüm sırada bir uşaq
Əlində tutub bayraq.
Şeir deyir məğrur-məğrur,
Üzündə var mərdlik, qürur.

Hər dəfə deyəndə "Vətən"
Bal-yağ tökülür dilindən.
Soruşdum adın nədir?
Dedi: "Adım Heydərdir!".

Dedim böyüyəndə sən
Nə peşə seçəcəksən?
Həkim, yoxsa müəllim,
Hansı işi görəcəksən?

Dedi: "Əsgər olacağam!
Hər zaman vətənimin
Keşiyində dayanıb,
Onu qoruyacağam!"

Dedim: "Şeir deyəndə sən,
Bildim, vətənpərvərsən!"
Dedim: "Afərin oğlan!".
Bir qürur duydum ondan!

Vaxt gəldi, keçdi zaman
Böyüdü həmin oğlan.
Elmlidən elm öyrəndi,
Oldu müdrik bir cavan.

Dünyanı gəzdi dolaşdı,
Qitədən-qitəyə aşdı.
Vəfalı ilə dost oldu,
Düşmənlər ilə savaşdı.

Vətənin dar günündə
Həmişə oldu öndə.
Ona görə xalq ona
Ad verdi: "Ulu Öndər"!



**Heydər babamız oldu**

Hər ilin gözəl yazında,
Baharın şən avazında,
Yığışırıq uşaqlarla,
Baş-başa verib quşlarla,
Şən mahnılar oxuyuruq
Çiçəklərdən babamıza,
Əlvan çələng toxuyuruq.
Çələngi Heydər babanın ,
Sevdiyimiz o insanın
Büstü önünə qoyuruq,
Biz sevimli babamızı
Beləcə xatırlayırıq.
O tanıtdı dünyaya
Azərbaycan xalqını.
O verdi yurdumuza
Müstəqillik adını.
Bizə çox əziz oldu,
Heydər babamız oldu!

Əziz uşaqlar, bildirmək istərdik ki, sevimli uşaq şairi və yazıçısı Zahid Xəlilin ümummilli liderə həsr etdiyi silsilə şeirləri var ki, bunlardan "Oxu, Surxay", "Bulaq", "O gecə", "Əl", "Heydər körpüsü", "Azərbaycan xiyabanı", "Uçaq", "Dağlar" və s misal göstərmək olar. Şairin şeirlərdə bütün övladları öz balası kimi sevən, onlara qayğı və diqqət göstərən, uğurlarından fərəhlənən, qürur keçirən dahi şəxsiyyət kimi söz açılır. Müəllif ümummilli liderin adı verilən park və xiyabanlardan, bulaqlardan danışır, onların əsrarəngiz və gözəlliyinin sirrini

adlarından alması ilə izah edir. Şair üçün Babadağdan da uca, buludlardan da yüksək zirvə olan ulu öndərin saldığı yol - Heydər yolu kiçik oxuculara örnək göstərilir, bildirilir ki, bu yol xoş əmələ söykəndiyi üçün sonu uğura çıxır.

Oxucular səhnəyə daxil olur. Heydər Əliyev fondunun vitse-prezidenti Leyla Əliyevanın babası Heydər Əliyevə ithaf etdiyi "Elegiya"sını söyləyirlər. "Elegiya" ilk dəfə 2008-ci il dekabrın 12-də Heydər Əliyevin vəfatının 5-ci ildönümündə "Azərbaycan" qəzetində dərc olunub. Şeirə qısa bir zamanda Kəmaləddin Heydərov mahnı bəstələnmiş, Ağadadaş Ağayev isə bu mahnını mükəmməl şəkildə ifa etmişdir.

Ulduzlara uçan quşa dönəydim,
Ay da yollarıma nur ələyəydi.
Məğrur yerişinlə qoşa dönəydin,
Sənə Yer üzündə yer eləyəydim.

Dinlə kədərimin pıçıltısını
Mən yaxşı bilirəm ayrılıq nədi!..
Küləklər könlümün qışqırtısını
Kaş ki, kainata yaya biləydi.

Könüllər yaşadır gur nəfəsini,
Sənsiz hər bir anın öz qüssəsi var.
Müqəddəs səsinin xatirəsini
Anlada bilərmi çağlayan çaylar?

Bulud karvanına qoşulum yenə,
Gəzim asimanı, hardasan görüm.

Çatıb ucalığa, yetişim sənə,
Əlimi əlindən yapışan görüm!

Acı göz yaşını sel elə gəlsin,
Ey yağış, soyumur dərdimin odu.
Qüssədən qocalan Ay dilə gəlsin,
Söyləsin, ruhunun haradı yurdu?

Dağ idin, çiynimi dağlara verdim,
Dağların dərdini çəksə, dağ çəkər.
Sənə məhəbbətim dağlar qədərdi,
Yerini dağlardan soruşum bəlkə?

Bəlkə çinarlarla baş-başa verim,
Görən qovuşarmı boyum boyuna?
Gərək sənə yetə bu qəmli şerim,
Gərək sənə yetə... haqqım var buna.

Nurunu gözümdə saxlayım necə?
Möcüzə yarartmaq gəlmir əlimdən.
Parçalan, ey zülmət, çəkil ey gecə,
Günəşə qovuşmaq istəyirəm mən!

XX əsr siyasətinin görkəmli simalarından olan Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə bağlı kitabxanamızda keçirilən tədbirlərdən biri də yuxarı sinif şagirdlərinin iştirakı ilə "Heydər Əliyevin fəaliyyəti müasir gəncliyin gözü ilə"adlı oxucu konfransıdır. Konfransı təşkil edən kitabxanaçı tədbirin planını tutur, konfransın keçiriləcəyi vaxtı təyin edir. Millət vəkilləri, şair və yazıçılar, alimlər, tarixçilər, ədəbiyyatşünaslar,

ali və orta məktəb müəllimləri, şagirdlər, kitabxanaçılar tədbirə dəvət olunur. Çıxış və məruzələr dinlənilir. Tədbirin planını sizlər üçün təqdim edirik.

1.Giriş hissə (Heydər Əliyevin həyat və yaradıcılığı haqqında məruzə)

2.Heydər Əliyevin yaradıcılığı haqqında kitabxana rəhbərliyinin, millət vəkillərinin, siyasətçilərin, yazıçı və şairlərin çıxışları.

3.Yuxarı sinif şagirdlərindən ibarət olan oxucuların Heydər Əliyevin fəaliyyətindən bəhs edən müzakirələri.

4. Ədəbi bədii kompozisiya.

5.Konfransın yekunu.

Ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunmuş konfrans "Heydər Əliyev-Dahi şəxsiyyət" adlı sənədli filmin nümayişi ilə başa çatır.

F.Köçərli adına Respublika Uşaq Kitabxanasında ulu öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı keçirilən silsilə tədbirlərdən biri də xatirə gecəsidir. Xatirə gecəsi iki hissədən ibarət olur. Kitabxanaçı iki ay qabaqcadan tədbirin planını tutur, iştirak edən qonaqları müəyyənləşdirir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, hər bir azərbaycanlının taleyində müstəsna rol oynamış ümumilli liderin zəngin irsinin dərindən və hərtərəfli öyrənilməsi üçin tədbirə Heydər Əliyev İrsini Araşdırma Mərkəzindən bir çox alimlər, tarixçilər, ədəbiyyatşünaslar, müəllimlər, muzeyşünaslar, kitabxanaçılar bir sözlə Heydər Əliyev şəxsiyyətinə pərəstişkar qonaqlar dəvət olunur.

Tədbirdə Ulu öndərin Azərbaycanın siyasi səhnəsinin birinci şəxsi kimi fəaliyyətə başlaması və onun ölkə həyatına

gətirdiyi əzəmətli inkişaf meyilləri haqqında danışılır. Tədbirin ikinci hissəsi ulu öndər Heydər Əliyevə həsr olunmuş şeir, esse, musiqi bəstələri ilə davam edir. Kitabxanaçı tədbiri açıq elan edir.

**I Aparıcı:** Tarixdə şəxsiyyətlərin önəmli rolu hər zaman olmuşdur. Böyük şəxsiyyətlər xalqın sərvətidir. Müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi, mədəni-mənəvi intibahımızın təminatçısı Heydər Əliyev Azərbaycan xalqının XX əsrdə yetişdirdiyi nadir tarixi şəxsiyyət, tariximizin canlı əfsanəsi idi. Heydər Əliyevin zəngin və mənalı həyat yolu elə şərəfli bir tarixdir ki, gələcək nəsillər zaman-zaman onu öyrənəcək, ondan bəhrələnəcək. Gəlin elə birlikdə bu həyat yoluna nəzər salaq.

Heydər Əlirza oğlu Əliyev 1923-cü il mayın 10-da Azərbaycan Respublikasının Naxçıvan şəhərində anadan olub.
1939-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) memarlıq fakültəsinə daxil olub, lakin İkinci Dünya müharibəsinin başlanması ona təhsilini başa çatdırmağa imkan verməyib.

Heydər Əliyev 1941-1944-cü illərdə əvvəlcə Naxçıvan Muxtar Respublikası Xalq Daxili İşlər Komissarlığında arxiv şöbəsinin məxfi hissəsinin müdiri, sonra isə Naxçıvan MSSR Xalq Komissarları Sovetində ümumi şöbənin müdiri vəzifələrində işləyib.
1944-cü ilin may ayında dövlət təhlükəsizliyi orqanlarında işə göndərilib.

1949-1950-ci illərdə SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin Leninqraddakı (indiki Sankt-Peterburq) Rəhbər Kadrların Hazırlığı Məktəbində təhsil aldıqdan sonra, 1950-ci

ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsində bölmə rəisi təyin edilib. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) tarix fakültəsinin qiyabi şöbəsini bitirib.

1958-ci ildə Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin əks-kəşfiyyat şöbəsinin rəisi, 1964-cü ildə DTK-nın sədr müavini təyin edilib. 1966-cı ildə Moskvada DTK-nın F.E.Dzerjinski adına Ali Məktəbinin rəhbər heyətin təkmilləşdirilməsi kurslarını müvəffəqiyyətlə bitirib.

1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə təyin edilib və həmin ildə də ona general-mayor rütbəsi verilib.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il iyulun 14-də keçirilmiş plenumunda Heydər Əliyev Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçilib.

Heydər Əliyev 22 il Azərbaycan SSR Ali Sovetinin və SSRİ Ali Sovetinin deputatı olub. 1974-1979-cu illərdə isə SSRİ Ali Soveti İttifaq Sovetinin sədr müavini vəzifəsini tutub.
1976-cı ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvlüyünə namizəd, 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilib. Bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik edib.

Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verib.

Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə ilə əlaqədar, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk edib.

1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşüb, həmin ildə də Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilib.
1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olub. Bu vəzifədə o, 1993-cü ilə kimi çalışıb.

Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilib.

1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur olub.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayıb.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilib.

O, 1998-ci il oktyabrın 11-də xalqın yüksək fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq, yenidən Azərbaycan Respublikasının Prezidenti seçilib.

2003-cü il oktyabrın 15-də keçirilən prezident seçkilərində namizədliyinin irəli sürülməsinə razılıq vermiş Heydər Əliyev səhhətində yaranmış problemlərlə əlaqədar namizədliyini İlham Əliyevin xeyrinə geri götürüb.

2003-cü il dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Amerika Birləşmiş Ştatlarının Klivlend Klinikasında vəfat edib və dekabrın 15-də Bakıda, Fəxri xiyabanda dəfn olunub.

Heydər Əliyev beş dəfə keçmiş SSRİ-nin Lenin ordeni ilə, Qırmızı Ulduz ordeni və çoxsaylı medallarla təltif edilib, iki dəfə Sosialist Əməyi Qəhrəmanı adına, həmçinin müxtəlif ölkələrin ali mükafatlarına, nüfuzlu ali məktəblərin fəxri adlarına layiq görülüb. Oxucular səhnəyə daxil olur. Xalq şairi Zəlimxan Yaqubun “Bir dahi doğulub gəldi dünyaya” adlı şeirini söyləyirlər.

Naxçıvanda doğuldu
23-ün mayında.
Güllü bahar fəslinin
ən işıqlı ayında.
Anası İzzət xanım,
atası Əlirza
Şükürlər oxudular
onlara oğul verən
Tanrıya, İlahiyə,

bu bahara, bu yaza.
Ata-ana ad qoyub
adına Heydər dedi,
Bu həyatın barını
dərdikcə, Heydər, dedi.
O boy atıb böyüdü
gündə bir darı boyda,
Ona layla çalanın
xoş arzuları boyda.
Hər anla, hər saatla,
hər fəsillə böyüdü.
Damar-damar bərkidi,
pillə-pillə böyüdü.

**II Aparıcı:**Heydər Əliyev bu millətin inkaredilməz qürur mənbəyi, qazandığımız bütün nailiyyətlərin səbəbkarı, uğurlu gələcəyimizin təməlini qoyan alternativsiz lider, millət atasıdır. Müstəqil Azərbaycan və onun əldə etdiyi uğurlar ümumilli liderimiz Heydər Əliyev fəaliyyətinin şah əsəridir. Oxucular səhnəyə daxil olur. Leyla Əliyevanın "Mənim babam" adlı şeirini səsləndirirlər.

Mənim babam gözəl insan,
Sevimlidir, mehribandır.
Yüz il, min il yaşayasan -
Desəm ona, yenə azdır.
İnsan var ki, qəlbi qara,
Bəd əməli, bəd niyyəti.
Onlar hara, babam hara...
Bir insandır ədalətli,
Öz xalqına sədaqətli,

Mənim babam.
Kömək edər, əluzadar,
Dara düşsə bircə adam.
Bax, belə bir ömür yaşar.
Mənim məğrur,
Mənim əziz Heydər babam!

https://clb.az/multi-medi-a/virtual-sergi/heyd-r-liyevin-anadan-olmasinin-98-ci-ildonumun-h-sr-olunmus-ulu-ond-r-adli-virtual-s-rgi

https://clb.az/biblioqrafik-xidm%C9%99t/elmi-metodika/metodik-vesaitler/2020/az-rbaycanin-xilaskari-v-memari-heyd-r-liyev

**I Aparıcı:** Hər bir xalqın uzaq və yaxın keçmişində onun taleyinə həlledici təsir göstərmiş, ölkəsinin adını həm milli, həm də bəşər tarixinə şərəflə həkk etmiş, əsrlər boyu formalaşmış milli-mənəvi dəyərləri qorumaqla dövlətinin gələcəyini də uğurla müəyyənləşdirmiş dahilər çox deyil. Xoşbəxt o xalqdır ki, Vətənə sevgisi, xalqa ehtiramı, dövlətə sadiqliyi ilə hər bir kəsə örnək olan, zəkası, dühası və istedadı ilə dünyada tanınan, bütün ömrünü doğma xalqının xoşbəxt gələcəyi uğrunda mübarizəyə həsr etmiş tarixi şəxsiyyətləri var. Ümummilli lider Heydər Əliyev məhz belə dahilərin sırasına yüksəlmiş Azərbaycan övladı olmuşdur.

Azərbaycan deyiləndə ilk növbədə ümummilli lider Heydər Əliyev yada düşür. Azərbaycanın müasir tarixini bu böyük şəxsiyyətin keçdiyi mənalı və şərəfli həyat yolundan ayrı təsəvvür etmək olmur. Müdrik və uzaqgörən dövlət xadimi Azərbaycanın bugünkü və gələcək inkişaf yolunu müəyyən

etmiş, onun iqtisadi və siyasi müstəqilliyinin əsasını qoymuş, bu müstəqilliyin əbədi və möhkəm bünövrəsini yaratmışdır.
Vətənini və millətini ürəkdən sevən, bütün ömrünü onun tərəqqisinə həsr edən Heydər Əliyevin həyat fəlsəfəsi onun bu sözlərində çox gözəl ifadə edilmişdir: “İstər bir azərbaycanlı, Azərbaycan Respublikasının vətəndaşı, istərsə də onun rəhbəri, Prezident kimi mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi , mənəvi inkişafına xidmət olmuşdur. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam.

**II Aparıcı:** Bəli əziz oxucu! Dahi insanlara xas olan bütün mənəvi keyfiyyətlər Heydər Əliyevin şəxsində qibtə ediləcək kamilliklə əks olunmuşdu. Dəmir iradə və fitri idarəetmə istedadı, yaradıcılıq və quruculuq, iti fəhm və dərin zəka, siyasi uzaqgörənlik və müdriklik, fenomenal yaddaş və güclü məntiq, böyük vətənpərvərlik və yüksək humanizm, ən nəhayət, dövlətçilik və azərbaycançılıq. Zaman keçdikcə bir həqiqəti bütün varlığımızla dərk edir, Heydər Əliyev dühasının milli dövlətçilik qarşısındakı əvəzsiz xidmətlərini daha aydın görürük.

Azərbaycan ədəbiyyatının nümayəndələri Heydər Əliyevi həm zamanında qiymətləndirmiş, həm də haqq dünyasına qovuşandan sonra onun ruhuna ehtiram göstərərək, ulu öndərin millətimizə, milli dövlətçiliyimizə, Vətənimizə göstərdiyi misilsiz xidmətləri öz yaradıcılıqlarında vəsf etmiş, əsərlər yazmışlar.

Heydər Əliyev şəxsiyyətinə üz tutan hər şair, yazıçı bir tərəfdən öz aləmini zənginləşdirir, digər tərəfdən yazdığı əsər uğurlu alınarsa, bununla ulu öndərə daha bir abidə ucaltmış

olur... Bu məqamda, artıq özü də haqq dünyasında olan Xalq şairimiz Zəlimxan Yaqubun sözlərini xatırlatmaq yerinə düşərdi: “Məndən soruşsalar ki, məhəbbətə, cəsarətə, sədaqətə, sənətə, təfəkkürə, fəlsəfəyə, poeziyaya heykəl qoymaq istəyirik, kimin heykəlini qoyaq? Deyərəm, Heydər Əliyevin!”

Əlbətdə Heydər Əliyev kimi yaddaşlara hopmuş, ürəklərə köçmüş dahi şəxsiyyətlər haqqında əsərlər yazmaq şərəfli, şərəfli olduğu qədər çətin, məsuliyyətlidir. Belə əsərlərin müəllifləri hörmət qazanır, oxunur, sevilir...gələcəkdə də oxunacaq-seviləcək...

Yeni nəsillər Heydər Əliyev yaşamını, yolunu, istedadını da məhz yazılan bədii əsərlərdən öyrənəcəklər.

Oxucular səhnəyə daxil olur. Əməkdar incəsənət xadimi, şair Baba Vəziroğlunun “Sən elə bir zirvəsən” adlı şeirini səsləndirirlər.

I Oxucu:
Gözlərində açılır bu millətin səhəri,
Sənin adınla bağlı bu xalqın hər zəfəri.
Qədəmin dəyən yerdə səhralar da gül açır,
Gülüstana çevrilir yurdun kəndi, şəhəri.

Günəş doğur elə bil, harda çəkilir adın,
Dosta fəxarət gəlir, gözü kor olur yadın.
Azərbaycan deyəndə səni düşünürük biz,
Azadlığa inamı xalqa sən bağışladın.

Sən elə bir zirvəsən, küləklər neyləyəcək,
Dünənim, bu günümsən, səninlədir gələcək.
Nə qədər Azərbaycan, nə qədər bu millət var,

Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!
Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!

II Oxucu:

Sən bu çətin zamanda gücümüz, qüvvətimiz,
Sən bizim bu dünyada ən böyük sərvətimiz.
Millətin imzası var imzaların içində,
Sənə halaldır, halal ülvi məhəbbətimiz.

Sən elə bir zirvəsən, küləklər neyləyəcək,
Dünənim, bu günümsən, səninlədir gələcək.
Nə qədər Azərbaycan, nə qədər bu millət var,
Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!
Heydər Xalqım deyəcək, Xalq Heydər söyləyəcək!

**I Aparıcı:** Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Ölüm sevinməsin qoy, ömrünü vermir bada
El qədrini canından daha əziz bilənlər
Şirin bir xatirədək qalacaqlar dünyada
Sevərək yaşayanlar, sevilərək ölənlər.

Bəli, o xalqının yolunda yandı, amma işığı bütün bəşəriyyətə yayıldı. Dahilər ölmür, sadəcə cismən torpağa, ruhən isə əbədiyyətə qovuşurlar.

Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi ulu öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi ümummilli lideri var. Və bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız onun müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcəkdir.

Azərbaycan xalqı ulu öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

Bəli, əziz oxucu bizə yalnız böyük öndərin ideyalarına sədaqətli olmaq qalır. Vətənimizi Heydər Əliyev kimi sevəcək, dövlətimizə, dövlətçiliyimizə qarşı çıxanlara barışmaz olsaq, Prezidentimizin ətrafında sıx birləşsək, kifayət edər. Ümumilli liderimizin daima Azərbaycanla, xalqımızla olan ruhu qarşısında bunu etməyə borcluyuq.

Zaman keçəcək, Heydər Əliyevin Azərbaycan naminə fəda etdiyi ömrünün hər məqamına, hər səhifəsinə yeni-yeni əsərlər ithaf olunacaq, onun nə qədər əvəzsiz bir şəxsiyyət olduğu biz düşündüyümüzdən də artıq olduğu bir daha sübut ediləcək.

Sonda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sitatı ilə tədbirimizi başa vururuq.

“Mən 2022-ci ili “Şuşa İli” elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. 2023-cü il isə “Heydər Əliyev İli” elan edilib. Bu il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb.”

**İlham Əliyev**

**Azərbaycan Respublikası Prezidenti**

Oxucular səhnəyə daxil olur. Şair Rafiq Yusifoğlunun “Ulu öndər” şeirini söyləyirlər.

Vətənin dar günündə
Onun dadına çatdın
Üçrəngli bayrağımı
Zirvələrə ucaltdın

Yurdumuzun üstündən
Qovdun qara kölgəni
Məhv olmaqdan qorudun
Xilas etdin ölkəni

Çiçəklənən ölkəmiz
Gülüstana oxşayır
Özün olmasan belə
Əməllərin yaşayır.

Tədbirin sonunda iştirakçılar dahi şəxsiyyət Heydər Əliyevin məzarını ziyarət edir, abidəsi önünə gül dəstələri düzüb əziz xatirəsini ehtiramla anır, ruhuna dualar oxuyurlar.

**F.Köçərli adına Respublika Uşaq Kitabxanasının Məlumat və biblioqrafiya şöbəsinin mövzu ilə bağlı kitabxananın fondu əsasında hazırladığı ədəbiyyat siyahısı**

**Kitablarda**

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və zaman. **I hissə** : 1923-1969. - Bakı : Ozan, 2007. - 352 s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və zaman. **II hissə** : 1969-1982. - Bakı : Ozan, 2007. - 784 s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və Zaman. Kreml beşilliyi. **III hissə** : 1982-1990. - Bakı : Ozan, 2009. - 804, [48] s.

**Axundova E.** Heydər Əliyev. Şəxsiyyət və Zaman : həyat və fəaliyyətinin xronikası. **IV hissə** : 1969-1989. - Bakı : Ozan, 2008. - 328, [64] s.

**Babayev X.** Azərbaycançılıq, elmi-dini maarifçilik, mənəvi özünüdərk nümunəsi. - Bakı : Borçalı, 2004. - 144 s.

**Cəfərov N.** Seçilmiş əsərləri : 5 clddə. **I cild**. - Bakı : Elm, 2007. - 352 s.

**Çobanov M.** Görkəmli strategiyaçı. - Bakı : Borçalı, 2004. - 48 s.

**Əbdülhüseyn Ə**. XX əsrin 100 görkəmli Azərbaycanlısı. - Bakı : Sumqayıt, 2002. - 296 s.

**Əhmədova S**. Heydər Əliyevin dil siyasəti : monoqrafiya. - Bakı : MBM, 2008. - 96 s.

**Əhmədova S**. Heydər Əliyevin dil siyasəti : monoqrafiya. - Bakı : İncə nəşriyyat evi, 2010. - 231 s.

**Əli A**. Böyük ömrün anları : Mustafa Kamal Atatürkün və Heydər Əliyevin şərəfli ömür yolundan bəhs edən fəlsəfi-publisistik foto-illüstrativ esse. - Bakı : Təhsil, 2004. - 220 s.

**Əliyev Q**. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu. - Bakı : Şəms, 2006. - 520 s.

**Əliyev T**. Azərbaycanı dünyaya tanıdan Böyük İnsan : Heydər Əliyev-90. - Bakı : Oğuz Çap, 2013. - 226 s.

**Əliyev Z**. Heydər Əliyev 85 : Səhnəarxası görüşlər. - Bakı : UniPrint, 2008. - 102 s.

**Ərəstunoğlu R**. Əbədiyaşar dahi insan... . - Bakı : Araz, 2007. - 120 s.

**Günər M**. Bir oğul göstərin Heydərə bənzər : məktub, xatirə, şeir. - Bakı : Nağıl evi, 2009. - 115 s.

**Hacıyev C**. Onu zaman seçib : poeziya. - Bakı : Qanun, 2008. - 64 s.

**Həmzəoğlu R**. Heydər Əliyev və Azərbaycan təhsili. - Bakı : Vektor, 2007. - 300 s.

**Həsənova M**. Heydər Əliyev və Azərbaycan dövlətçiliyində qadın məsələsi. - Bakı : Elm, 2001. - 80 s.

Heydər Əliyev - müstəqil Azərbaycanın neft emalı sənayesinin banisidir = Heydar Aliyev is the founder of oil refining industry of independent Azerbaijan. - Ankara : [s. n.], 2003. - 145 s.

Heydər Əliyev : Azərbaycan bütün azərbaycanlıların vətənidir. - Bakı : Azərbaycan, 2000. - 143 s.

Heydər Əliyev mədəni irsimizin keşiyində. **I kitab**. - Sincan – Ankara : Nurol printing & Packaging industry inc., 2001. - 439 s.

Heydər Əliyev **və** Azərbaycançılıq : Qusarda, Lənkəranda və Şəkidə keçirilmiş bölgə müşavirələrinin materialları. - Bakı : Master, 2006. - 188 s.

Heydər Əliyev **və** mədəni irs = Heydar Alıyev and cultural herıtage. - Bakı : [s. n.], 2014. - 200 s.

Heydər Əliyev və mədəniyyət : 3 cilddə. **I cild** : 1969-1982, 1993-1996 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 472 s.

Heydər Əliyev və mədəniyyət : 3 cilddə. **II cild** : 1997-1998 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 528 s.

Heydər Əliyev və mədəniyyət : 3 cilddə. **III cild** : 1999-2003 : müraciətlər, çıxışlar, müsahibələr, təbriklər, məlumatlar. - Bakı : Nurlar, 2008. - 536 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. **I cild** : müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : yanvar, 1990-iyul,1996. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. **II cild** : müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : iyul,1996-iyul,1998. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. **III cild** : müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : iyul,1998-sentyabr,2000. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev və mətbuat : 4 cilddə. **IV cild** : müsahibələr, bəyanatlar, müraciətlər, çıxışlar : noyabr, 2002-Mart, 2003. - Bakı : Nurlar, 2003. - 640 s.

Heydər Əliyev**. Müstəqilliyimiz** əbədidir. Çoxcildliyin X-XXVIII cildlərinin köməkçi göstəricisi : Qeydlər, şəxsi və coğrafi adlar göstəriciləri. - Bakı : M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2010. - 509 s.

Heydər Əliyev**in dil** siyasəti : rəsmi sənədlər. - Bakı : Şirvannəşr, 2009. - 133 s.

Heydər Əliyevin Neft Strategiyası. Azərbaycanın Müstəqillliyi və Rifahı Naminə. **I hissə**. - Sincan – Ankara : Nurol printing & Packaging industry inc., 2001. - 496 s.

**Hüseynova İ.** Heydər Əliyev və Qafqazda sülh prosesi : Ali məktəblər üçün dərslik. - Bakı : Çaşıoğlu, 2008. - 672 s.

**Hüseynova L.** Heydər Əliyev irsində Azərbaycan tarixi məsələləri : Müstəqillik dövrü. - Bakı : Təhsil, 2011. - 216 s.

Xalqa bağışlanan ömür. VIII kitab. - Bakı : Şəms, 2005. - 384 s.

**Xələfov A**. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. - Bakı : Azərnəşr, 2006. - 312 s.

**Xınalı Z**. Hərbi məktəblərin banisi. - Bakı : Adiloğlu, 2006. - 264 s.

XXI Əsrə Sülh Körpüsü : Azərbaycan Respublikasının Prezidenti **Heydər Əliyev**in Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatının İstanbul Zirvə görüşü ilə əlaqədar Türkiyəyə səfəri 17-20 noyabr 1999-cu il. - Bakı : [s. n.], 2000. - 212 s.

**Kazımzadə A. Ə.** Heydər Əliyev və kinematoqraf. - Bakı : Mütərcim, 2007. - 204 s.

**Kazımzadə A**. Heydər Əliyev və kinematoqraf. - Bakı : Apostrof, 2011. - 212 s.

**Qacar M**. Xilaskar : poema. - Bakı : Ulduz, 2004. - 58 s.

**Qasımlı M.** Heydər Əliyev-İstiqlala gedən yol (1969-1987-ci illər). - Bakı : Bakı Dövlət Universiteti Nəşriyyatı, 2006. - 608 s.

**Quliyev C.** Tarix: düşüncələr, mülahizələr, qeydlər... : 1953-2003. - Bakı : Elm, 2004. - 764 s.

**Mahmudov Y**. Heydər Əliyev ideyalarının zəfər yürüşü. - Bakı : Təhsil, 2011. - 608 (548+60) s.

**Mehdi M**. Heydər Baba - Heydər dədə : poeziya. - Bakı : Adiloğlu, 2004. - 34 s.

**Mehdiyev R.** Vətəndaş cəmiyyətinə yol açan ideyalar : Azərbaycan özü qədər əbədi silsiləsindən. **III kitab**. - Bakı : Polygraphic production, 2006. - 584 s.

**Məmmədov Q**. Heydər Əliyev torpaq islahatları regionların sosial - iqtisadi inkişafının əsasıdır. - Bakı : [s. n.], 2008. - 232 s.

**Mirələmov H. F**. Bir günəş var : Tarixi-publisistik düşüncələr. - Bakı : Səda, 2004. - 240 s.

**Mirələmov H.** Həqiqət : publisistik düşüncələr. - Bakı : Azərbaycan, 2003. - 448 s.

**Mirələmov H..** İşığın izi ilə : Tarixi-ədəbi esse. - Bakı : Azərbaycan, 2004. - 288 s.

**Mirələmov H.** Millətin atası : publisistik düşüncələr, tarixi esselər, məktublar. - Bakı : Azərbaycan, 2004. - 288 s.

**Mirələmov H.** Zəfər yolu : esse. - Bakı : Gənclik, 2003. - 66 s.

**Mirzə V**. Azərbaycan dövlətçiliyinin qoşa qanadı. II kitab. - Bakı : Təhsil, 2006. - 344 s.

**Mirzəyev R**. Heydər Əliyev Azərbaycanın müasir neft emalı sənayesinin yaradıcısıdır. - Bakı : [s. n.], 2001. - 124 s.

**Mirzəyev R**. Heydər Əliyev və Müstəqil Azərbaycan Dövlətinin yeni neft strategiyası = Heydar Aliyev and new oil strategy of independent Azerbaijan. - Bakı : Göytürk, 1999. - 89 s.

**Mirzəzadə A**. Demokratiya plyus : Siyasət. - Bakı : Azərbaycan, 2004. - 416 s.

**Mirzəzadə R**. Azərbaycanı dünyaya tanıdan insan. - Bakı : Göytürk, 1998. - 335 s.

Müstəqillik yolunda yanan işıqlar. - Bakı : Təhsil, 2004. - 342 s.

Müstəqilliyimizin memarı. **I kitab**. - Bakı : Yazıçı, 2010. - 296 s.

**Nazimoğlu R**. Azərbaycan millətinin əvəzolunmaz lideri. - Bakı : Araz, 2006. - 104 s.

**Orucov H.** Heydər Əliyev və Azərbaycanda milli siyasət. - Bakı : Şərq-Qərb, 2002. - 172 s.

**Seyidov Ə.** Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası : Dərs vəsaiti. - Bakı : UniPrint, 2009. - 256 s.

**Seyidov M**. Zamanı qabaqlayan dahi. - Bakı : Vektor, 2007. - 315 s.

**Şükürov S**. Millət atası Ələkbərov. - Bakı : Təhsil, 2000. - 208 s.

**Şükürova E**. Azərbaycan xalça sənətinin Kamili. - Bakı : Altun kitab, 2006. - 128 s.

**Teymur M**. Ağ atlı xilaskar : şeirlər və poema. - Bakı : Şirvannəşr, 2005. - 84 s.

**Ülvi Ə**. Heydər baba nəğməsi : şeirlər. - Bakı : Şirvannəşr, 2006. - 112 s.

**Yəhyayev T.** Bir taledə iki ömür : xatirələr və düşüncələr. - Bakı : Əbilov, Zeynalov və oğulları, 2007. - 218 s.

**Dövrü mətbuatda**

**Abbaszadə M**. Ulu öndərin gerçəkləşən arzuları // Xalq qəzeti. - 2023. - 3 mart. - № 48. - S. 7.

**Ağaşahqızı Y**. Sən elə bir zirvəsən... // İki sahil. - 2023. - 18 yanvar. - № 9. - S. 4.

**Akimova E**. 2023 - Heydər Əliyev irsinin öyrənilməsi ili // Səs. - 2023. - 1 fevral. - № 18. - S. 4-5.

**Azadi S**. Gücün, iradənin, qətiyyətin vəhdəti // İki sahil. - 2023. - 28 yanvar. - № 16. - S. 6.

**Əhmədov A**. Sərhəd tanımayan şöhrətin parlaq təcəssümü // Azərbaycan Müəllimi. - 2023. - 6 yanvar. - № 1. - S. 6.

**Əhmədov Y**. Tanrının xalqımıza bəxş etdiyi bəsirətli şəxsiyyət : Heydər Əliyev - 100 // Səs. - 2023. - 25 yanvar. - № 13. - S. 8-9.

**Əkbərov C**. Xalqa və dövlətə şərəfli xidmət // İki sahil. - 2023. - 27 yanvar. - № 15. - S. 4.

**Ələkbərov S**. Heydər Əliyev - daim gələcəyə baxan böyük şəxsiyyət // Respublika. - 2023. - 6 yanvar. - № 1. - S. 8.

**Əliyev N**. Levan Mamaladze: Heydər Əliyev gürcü xalqına böyük hörmət və ehtiramla yanaşan siyasi xadim idi // Xalq qəzeti. - 2023. - 24 yanvar. - № 15. - S. 3.

**Əliyeva İ**. Nəsillərə əmanət zəngin tarixi irs : Heydər Əliyev ili 2023 // Azərbaycan : qəzet. - 2023. - 8 yanvar. - № 3. - S. 3.

**Əliyeva Y**. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir // İki sahil. - 2023. - 26 yanvar. - № 14. - S. 3.

**Hüseynli İ**. 1936-cı ildə Əliyevlər ailəsinə pənah gətirdim : Heydər Əliyev mənim həyatımda // Azərbaycan : qəzet. - 2023. - 25 yanvar. - № 16. - S. 4-5.

**Hüseynov R**. Ən uca rütbə // 525-ci qəzet. - 2023. - 20 yanvar. - № 11. - S. 10-11.

**Hüseynov R**. Həmişə Vətəndə // 525-ci qəzet. - 2023. - 7 yanvar. - № 2. - S. 10.

**Hüseynov R**. Heydər Əliyevi Heydər Əliyev edən // 525-ci qəzet. - 2023. - 14 yanvar. - № 7. - S. 8-10.

**Hüseynov R**. Köhnəlməyən dərslər // 525-ci qəzet. - 2023. - 28 yanvar. - № 16. - S. 10-12.

**Xəlilov Z**. Müdrik dövlət xadimi // Respublika. - 2023. - 24 yanvar. - № 15. - S. 6.

**İsmayılqızı X**. İmperiya rəhbərlərini cinayətkar adlandıran Lider // İki sahil. - 2023. - 19 yanvar. - № 10. - S. 5.

**İsmayılqızı X**. Ümummilli lider Heydər Əliyevin ideyaları daim qalib gəlir : 2023: " Heydər Əliyev ili " // İki sahil. - 2023. - 6 yanvar. - № 1. - S. 4.

**Kamal M**. Azərbaycanın rəmzi : Ulu Öndərin zəngin və çoxşaxəli irsi xalqımızın milli sərvətidir // Respublika. - 2023. - 11 yanvar. - № 5. - S. 7.

**Kamalqızı R**. 2023-cü il - Heydər Əliyev liderliyinin qalibiyyət və zəfər rəmzi // Səs. - 2023. - 14 yanvar. - № 7. - S. 8-9.

**Kamalqızı R**. Azərbaycanın istiqlal yolunun ilk zirvəsi : Ulu Öndər Heydər Əliyev və 20 Yanvar həqiqətləri // Səs. - 2023. - 20 yanvar. - № 11. - S. 8-9.

**Kamalqızı R**. Müasir Azərbaycan Ulu Öndərin həyat amalının təntənəsidir // Səs. - 2023. - 10 yanvar. - № 3. - S. 4.

**Kamalqızı R**. Ulu öndər Heydər Əliyev və Azərbaycan dilinin inkişafı : Heydər Əliyev - 100 // Səs. - 2023. - 27 yanvar. - № 15. - S. 8-9.

**Kəngərli R**. Naxçıvanın dahi yetirməsi və daimi himayədarı : 2023 - Heydər Əliyev ili // Xalq qəzeti. - 2023. - 18 yanvar. - № 11. - S. 4.

**Qədimoğlu N**. Milli dəyərlərin misilsiz himayədarı // Xalq qəzeti. - 2023. - 26 yanvar. - № 17. - S. 5.

**Qurbanov S**. Heydər Əliyev qətiyyətinin təntənəsi // Azərbaycan : qəzet. - 2023. - 19 yanvar. - № 12. - S. 6.

**Məmmədov T**. Heydər Əliyevin siyasi fəaliyyəti milli və ümumbəşəri dəyərlər sistemində... // İki sahil. - 2023. - 25 yanvar. - № 13. - S. 3.

**Məmmədova M**. 1993 - 100 ilin fövqündə - 2023 // Səs. - 2023. - 6 yanvar. - № 1. - S. 8-9.

**Mirzəbəyli İ**. Heydər Əliyev siyasətinə inam... : Azərbaycan gəncliyinin mübarizə əzmi bu siyasətdən qaynaqlanır // Xalq qəzeti. - 2023. - 24 yanvar. - № 15. - S. 3.

**Mirzəbəyli İ**. İyirmi iki il əvvəl - yanvarın bu günü : Azərbaycan Avropa Şurasına qəbul edildi // Xalq qəzeti. - 2023. - 25 yanvar. - № 16. - S. 3.

**Sadıqov B**. Böyük ömrün səhifələri // Azərbaycan : qəzet. - 2023. - 10 yanvar. - № 4. - S. 4.

**Sadıqova S**. 20 Yanvar həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında Ümummilli liderin rolu // 525-ci qəzet. - 2023. - 18 yanvar. - № 9. - S. 6.

**Səmədov S**. Zamana sığmayan Lider // İki sahil. - 2023. - 3 mart. - № 40. - S. 5.

Ulu öndərin ən çox sevdiyi tamaşalar // Xalq qəzeti. - 2023. - 14 yanvar. - № 8. - S. 5.

***Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən Azərbaycanlıyam!***

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Könül Səmədzadə**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: www.clb.az**